# Nəsrdə "şüur axını"nın analitik xarakteri

**Dilarə Şamil qızı Əliyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
**E-mail:** aliyeva.dilara724@yandex.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. T.Q. Məmməd,
filol.ü.f.d., dos. M.A. Nəcəfova

**Açar sözlər:** modernizm, psixoanaliz, təhtəlşüur, "Ulis" romanı, psixoloji roman
**Ключевые слова:** модернизм, психоанализ, подсознание, роман «Улисс», психологический роман
**Key words:** modernism, psychoanalysis, subconscious, novel "Ulysses", psychological novel

Dünya ədəbiyyatı 20-30-cu illərdə modernist meyllərin böyüyüb inkişaf etdiyi ictimai mühitə çevrildi. Klassik tərzinin özülündən dağılması köhnə incəsənəti yeniləşdirmək, təzədən işləmək üçün zəmin yaradırdı. Çünki o, insanların və cəmiyyətin tələblərinə cavab verə bilmirdi. Beləliklə, ədəbiyyatda və incəsənətdə futurizm, dadaizm, sürrealizm və s. kimi formal istiqamətlər meydana çıxırdı. Onlar ağır müharibələr nəticəsində normal həyat tərzini itirmiş insanın iztirablarının obyektiv göstəricisindən törəyib inkişaf edirdi. Modernist ədəbiyyat əvvəl sabit və izahı olan dünyanı indi başa düşə bilmir. Sanki hansısa naməlum qüvvələr onu qanlı insan yığını və coşqun su burulğanına atmışdı. O sadəcə dərk etdi ki, dünyada heç də hər şey sabit deyil.

Sabitləşmə dövründə əksər ziyalılar subyektiv idealizmin fəlsəfi nəzəriyyələrinin bərpasında məmnunluq hissi tapırlar. Onlar idrak qanunlarından və kobud realizmdən bezərək, ağlın idarə olunmadığı dünyada insanın təhtəlşüur impulslarını araşdırıb üzə çıxarmağa səy göstərir, şəxsiyyətin tam müstəqilliyinə can atırdılar.

Beləliklə, ədəbiyyatda "şüur axını" ifadəsinin zəmnini hazırlayan filosoflar yetişməyə başladı. Avstriyalı həkim psixiatr Ziqmund Freyd öz çoxillik təcrübəsi əsasında XX əsr ədəbiyyatında şəxsiyyət konsepsiyasına əhəmiyyətli dərəcədə təsir göstərən psixoanaliz nəzəriyyəsini yaradır. Freyd psixoanaliz nəzəriyyəsini nevroz xəstəliyinin müalicəsi metodundan insan şəxsiyyətinin ən dərin səviyyədə dərkinin universal metoduna çevirdi. Lakin Freyd subyektiv idealist filosofdur. O iddia edir ki, insani hərəkətlərin əsasında instinktin gizli qüvvələri gizlənir - şövq, ölüm qabağı qorxu, viran etmək ehtirası. Freyd insanın şüuruna qarşı instinkti və təhtəlşüuru qoydu. İnsanın psixi təəssüratlarına əsaslanan Freyd təhtəlşüur və instinktlər dünyasına nüfuz etməyi başlıca məqsəd sayırdı. O, bu, üsulun insani hərəkətləri izah edə biləcəyinə əmin idi.

Ədəbiyyatda Freydin ideyalarının təsirini (sevgi-nifrət, cazibə-itələmə, dostluq-həsəd) əsrin mədəni paradiqmasına daxil olan seksuallığın reabilitasiyasında, insanın hərəkətlərində instinktivliyə və təhtəlşüurluğa olan yüksək diqqətdə görmək olar.

Freydin şagirdi və davamçısı olan isveçli psixoloq və psixiatr Karl Qustav Yunq arxetip – sabit və demək olar ki, heç dəyişməyən insan davranışlarının stereotipi anlayışını yaratdı. Onun təhtəlşüur səviyyəsində, qədim miflərin arxaikliyi, bədii obrazların qorxularının ibtidai ovsunlamaq mərasimlərinin parçalarının saxlandığı psixi layda meydana çıxmasını deyir. Bə-

dii mədəniyyət əsrinə Yunq tərəfindən yaradılan insanın doğulduğu və mövcud olduğu əvvəlki nəslin təcrübəsini daşıyan təhtəlşüurluq anlayışı geniş daxil oldu. Kollektiv təhtəlşüurluq insan mədəniyyətinin bütün tarixinin universal dili, şifrəsi, kodu kimi simvolika və arxetip şəklində dururdu.

Bədii ədəbiyyatda Yunqun irəli sürdüyü maska ideyasını amerikan psixoloqu Uilyam Ceymsin davam etdirmişdir. Ceymsə görə, normal insanın şüurunda bir neçə ipostasiya mövcud ola bilər və təcrübədə bir insanın digər insanların fikirlərini qiymətləndirməsi kimi müxtəlif ictimai görünüşə malikdir.

Modernistlər tərəfindən Freyd nəzəriyyəsi ilə fransız idealist-filosofu Anri Berqsonun intuitivizm fəlsəfəsi qovuşdurulur. Öz əsərlərini hələ XIX əsrdə çap etdirən A. Berqson öyrədir ki, insan həyatında obyektiv şüur deyil, məhz intuitiv şəkildə duyulması mümkün olan təhtəlşüurluq təyinedicidir. Kiçik çaya müxtəlif qeyri-iradi assosasiya və xatirələr kimi tökülən və yalnız tədricən dərk edilən şüur axını Berqsonun fikrinə görə, həm filosof üçün, həm də müəllim üçün tətqiqat obyekti olmalıdır. Yalnız intuisiya bilavasitə həqiqəti dərk etməyə imkan verə bilər və bu dərk etmə ətraf mühiti duyma və rasional qavrama prosesindən xaricdə baş verir. Berqsonun təlimi insanın zehni, idraki qabiliyyətinə olan etibarsızlıqdan doğur. Psixikanın dərin proseslərini ağıl izah edə bilmir, buna yalnız intuisiya qadirdir. Dil də, Berqsona görə daxili təəssüratların bütün çalarlarını ifadə etmək iqtidarında deyil, ədəbiyyatda gerçəkliyin təhlili psixi vəziyyətin bədii təsviri ilə əvəz olunur.

"Şüur axını" XX əsr modernist ədəbiyyatında assosiasiyaların, nizamsızlığın qovuşması, sintaksisin qırılması vasitəsilə şüurun mental həyatının bilavasitə canlandırılmasını iddia edən üslubdur. Qeyd etdiyimiz kimi "şüur axını" anlayışı amerikan filosofu Uilyam Ceymsin adı ilə bağlıdır. O hesab edirdi ki, şüur fikirlərin, hisslərin, təəssüratların, assosasiyaların daima bir-birinin yolunu kəsdiyi axın və ya kiçik çay kimidir və yuxuda baş verdiyi kimi qəribə bir şəkildə bir-birinə qarışır, «Şüur axını» özü ilə şifahi nitqi, daxili monoloqu yamsılayan formanı təqdim edir. «Şüur axınının elementləri ilk dəfə rus ədəbiyyatında F.M.Dostoyevski və L.N. Tolstoy yaradıcılığında öz əksini tapmışdı. Dərmanların arasıkəsilmədən istifadəsinin təsiri altında şüuru dəyişkən vəziyyətdə olan Anna Kareninanın ölümqabağı monoloqu şübhəsiz şüur, axınını təmsil edirdi.

Ədəbiyyatda "şüur axını" məktəbini ingilis-irland yazıçısı Ceyms Coys yaratmışdır. "Şüur axını" yazı texnikası kimi fikir və təəssüratların xaosunu, şüurun ən cüzi hərəkətlərini canlandıran məntiqsiz daxili monoloqu təmsil edir. Bu, ardıcıllıqla əmələ gələn, bir-birini əvəzləyən və məntiqsiz üst-üstə yığılmalarla dolan fikirlərin sərbəst assosativ axınıdır. XX əsrin əvvəllərində şüur axını üslubunun ilk və aparıcı nümayəndələri Ceyms Coys və Marsel Prust hesab olunurdu. C.Coysun «Uliss» romanında söhbət Blum və Dedaldan, Mollidən getdikdə şüur - təhtəlşüur özü ilə bir neçə şüur axını təqdim edir. Mollinin son monoloqunun yekun fraqmentindən nümunə gətiririk: "Ah o aşağıdakı dəhşətli qaynar sel Ah dəniz od kimi qırmızı dəniz və möhtəşəm qürub çağları və Alameda bağlarmdakı əncir ağacları və həm də bütün gözəl küçələr və çəhrayı sarı mavi evlər qızılgül xiyabanları və yasəmən ətirşah kaktuslar və mən cavan qız idim və Dağ gülü otduğum Hibraltar və mənim əndəlis qızları kimi saçıma sancaqladığım al qızılgüllər və ya laləni taxmaq və həm də onun məni Mavritaniya hasarı yaxınlığında necə öpməsi və mən fikirləşdim bu və ya digəri fərqi yoxdur və onda mən ona gözlərimi işarə etdim ki, o yenə soruşsun və onda o məndən soruşur ki, mən hə demək istəyirəm hə mənim dağ çiçəyim və mən əvvəlcə ona elə sarındım ki, o mənim sinəmi onların ətlini hiss etdi və onun ürəyi dəlicəsinə döyünürdü və hə dedim hə mən hə istəyirəm"

Coysdan fərqli olaraq Prustun "şüur axını" daha analitik xarakter daşıyır, o nizamsız daxili

monoloqu ötürməyə ən az dərəcədə can atır. Prustun şüur axınının fəlsəfi əsası Ceyms yox. Berqsondur. "İtirilmiş vaxtın axtarışından" romanlar silsiləsindən birincisi olan "Svana tərəf" romanından bir parça nümunə gətirək: "Lakin hətta bizə məişət xırdalıqları nöqteyi-nəzərindən yanaşılsa da, hər bir kəsin ticarət müqaviləsi və ya vəsiyyətnamə ilə tanış olmaq ixtiyarında olduğu kimi biz nə isə bir xarici tamlıq, dəyişməzlik ifadə etmirik; insanın xarici görünüşü bizim onun haqqında fikirlərimizin törəməsidir. Hətta belə bir sadə akt olan «tanışı görmək», xeyli dərəcədə intellektual aktdır. Biz onun simasını bizdə artıq təşəkkül tapmış təsəvvürlərlə tamamlayırıq və bizim cızdığımız ümumi xətlərdə bu təsəvvürlər şübhəsiz ən əhəmiyyətli rol oynayırlar"

XX əsrin digər yazıçıları «şüur axınını» daha mülayim, bir qədər sadə istifadə etmişlər – onların sırasına Uilyam Folkner və Tomas Mann daxildir. Folknerin «Qəzəb və səs-küy» romanının bütöv birinci hissəsi səfeh Benci Kompsonun eşitdikləri və gördüklərinin ardıcıl etiraflarının yazılması kimi qurulub, bu o dövrlər üçün ikiqat, xüsusi eksperimental "şüur axını" idi: «Mən ağlamıram, lakin dayana bilmirəm. Mən ağlamıram, yer öz yerində durmur və mən də ağladım. Yer hey yuxarıya çıxır və inəklər də yuxarıya doğru qaçırlar. Ti-Pi ayağa qalxmaq istəyir. Yenə, yıxıldı, inəklər üzüaşağı qaçırlar. Kventin mənim əlimi tutur, biz anbara tərəf gedirik. Lakin anbar gedir və biz də onun geri qayıtmasını gözləməli olduq. Mən görmədim anbar necə qayıtdı. O, bizim arxamızdan qayıtdı və Kventin məni inəklərin sağıldığı yerdə təknəyə oturtdu. Mən təknədən yapışıram. O da gedir, lakin mən tutmuşam. Yenə inəklər qapının yanından üzüaşağı yüyürdülər. Mən dayana bilmirəm. Kventin və Ti-Pi üzüyuxarı yellənir, dalaşırlar. Ti-Pi aşağıya getdi. Kventin onu yuxarıya dartır. Kventin Ti-Pini vurur. Mən dayana bilmirəm».

"Şüur axını" termini U.Ceymsin əsərlərində meydana gəldi ki, o, burada "şüurun bütün halqalarının ardıcıllıqla düzüldüyü zəncir deyil, çaydır" fikrini inkişaf etdirirdi. C.Coysun "Uliss" romanı təhkiyə sənətinin ən yüksək zirvəsi elan edilmişdir. Bu müəllifin öz qəhrəmanlarının şüuruna daxil olmağa, onların fikir, hiss və assosiasiya axınlarını bərpa etməyə çalışdığı möhtəşəm əsərdir. Odissey və onun səyahətləri haqqında qədim dünya bilgim ərzində Dublinə səyahət edən dublinli burjua Blum, onun arvadı Merion və rəssam Dedalın hekayəsində Coys tərəfindən həyata keçirilib. "Uliss" Homerin "Odisseya"sına oxşayan on səkkiz epizoddan ibarətdir. Bu romanı "bu günlərin dahi əsəri", "möhtəşəm, fantastik, özünə görə tayı-bərabəri olmayan, ekssentrik dahinin qəhrəmanlıq eksperimenti" (S.Sveyq), "kollektiv təhtəlşüurluğun ifadəsi" və əsrin mənasızlığı (K.Yunq), «popart üslubunda dil oyunu" (X.Kenner), «modernist estetikanın İncili» (E.Qaniyeva) adlandırırdılar. Romanın geniş məkanında qəhrəmanlar üçün tipik olan beş yüz səhifədə yalnız bir gün - 16 iyun 1904-cü il barəsində söhbət açılır; tarix müəllimi, intellektual Stiven Dedalus, xristianlığı qəbul etmiş yəhudi, reklam agenti Leopald Blum və onun arvadı müğənni Merion (Molli). Qəhrəmanların şüur labirintlərini araşdıraraq Coys onları demək olar ki, şüur axının müxtəlif modifikasiyalarının köməyi ilə rentgenə salınmaya manız qoyur. Coys ən xırda təfərrüat ilə qəhrəmanların nə etdiyini, nə barədə düşündüyünü təsvir edir, onların şüur axınını, daxili monoloqlarını ötürür, onları hərəkətə gətirən şüurdan asılı olmayan impulsları izləməyə can atır, hər bir qəhrəmana xas olan erotik kompleksin mürəkkəbliyini açıb göstərməyə çalışır. Onlarla səhifə Blumun, Merionun və Dedalusun qarışıq fikirlərinin gedişini təsvir edir. Coys durğu işarələrini rədd edir, baş hərflərdən istifadə etmir, səsyazma priyomlarından bəhrələnirdi. Bəzən Blumun fikirlərinin natamamlığını və qeyri-müəyyənliyini göstərərkən, Coys sadəcə olaraq söz və ifadələri kəsərək bunu oxucunun düşüncəsinə həvalə edir.

Öz yaradıcılığında psixoloji romanın imkanlarının müxtəlifliyini nümayiş etdirən V. Vulf

da “şüur axını” məktəbinin davamçılarından biri kimi qəbul edilmişdir. Onlar ictimai mühitdən təcrid olunmuş insanın psixoloji həyatını öyrənməyi öz sənətlərinin məqsədi hesab edirdilər. Ətraf mühit onları yalnız qəhrəmanların şüurunda əks olunan zamanda maraqlandırırdı.

V.Vulfun bütün romanları şəxsiyyətin dərinliyinə doğru özünəməxsus səyahətdir ki, bunu oxucu qəbul edə və etməyə də bilər, lakin diktə edə bilməz. Vulf cəsarətli eksperimentçi kimi psixoloji təhlilin dərinliklərinə vararaq, insanda mənəvi başlanğıcın hüdudsuz dərinliklərinin üzə çıxarılmasına can atmaqla sənətdə yeni yollar axtarırdı.

Ədəbiyyatda hər bir yeni dövrün həllinə can atdığı əsas problem - insan və cəmiyyətin qarşılıqlı münasibəti problemidir. XX əsrdə bu canatma ictimai-siyasi və ideoloji mübarizənin gərginliyi ilə yeni bir mərhələyə qədəm qoydu. Bu problemi modernistlər “şüur axını” priyomu ilə özünəməxsus tərzdə həll etməyə çalışırdılar. Modernist ədəbiyyatda insan təsviri prinsipləri hər zaman mübahisəyə səbəb olmuş, onlar şəxsiyyətin tədric edilməsini, fərdiyyəçiliyi qəti surətdə təsdiqləyirdilər. Modernistlər üçün cəmiyyətin incəsənətdə hər hansı bir rol oynaası haqqındakı fikirlər yad idi və onlar incəsənətin həyat üzərində üstünlüyünü bəyan edir, öz əsərlərində sosial problemlərin həll edilməsindən imtina edirdilər. Bununla bağlı modernist əsərlərin baş qəhrəmanları cəmiyyətin bir üzvü olmaqdan boyun qaçırır və gerçəkliyin real mənzərəsini subyektiv açıqlamalarla əvəzləyirdilər.

**Məqalənin aktuallığı.** “Şüur axını” modernist nəsrin aparıcı yer tutan anlayışlarından biridir. Bu metod yazıçılar tərəfindən XX əsrin əvvəllərindən müasir dövrümüzədək effektiv şəkildə istifadə edilmişdir və tez-tez sərbəst yazma olaraq da adlandırılır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə bir sıra filosofların “şüur axını” ilə bağılı analitik mövqeləri sərgilənir. Jeyms Joys, Marsel Prust, Virciniya Vulf kimi yazıçıların sərbəst axan nəsr ideyası nümunələr üzərində təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə bakalavr, magistr və doktorantların elmi axtarışlarının qaynağına çevrilə bilər.

## Ədəbiyyat

1. Ziqmund Freyd. Psixoanalizlə ilkin tanışlıq, Bakı: Qanun, 2016, 160 s.
2. Джеймс Джойс. Улисс, М., 1922, 810 с.
3. Marsel Prust. İtirilmiş zamanın sorağında, Bakı: Qanun, 1999, 210 s.
4. Затонский Д.В. Модернизм и постмодернизм: Мысли об извечном коловращении изящных и неизящных. Харьков: Фолио, 2000, 259 с.
5. Quliyev Q. Qərb ədəbiyyatında ekzistensializm. Bakı: Cahan, 1998, № 4, s. 58-62.

**Д.Ш. Алиева**

## Аналитический характер «потока сознания» в прозе

## Резюме

В статье представлена информация об особенностях метода «потока сознания» в модернистской литературе, возникшего в первой половине XX века. Мы говорим о влиянии этого приема на развитие жанра романа. Вводная часть статьи посвящена модернизму, лежащему в основе модернистского романа, и таким концепциям, как модерн и

модернизация. Модернизм как метод в литературе сочетает в себе экзистенциализм, кубизм, сюрреализм, абстракционизм, авангард, импрессионизм и другие течения. Человек больше не отражает дары природы, а проявляет свою индивидуальность, сосредотачиваясь на самых разных вещах. В основном разделе исследуются особенности «потока сознания» и влияние романного стиля на роман. В начале XX века разнонаправленная сюжетная линия в жанре романа стала заменяться внутренними психологическими описаниями. В произведении «поток сознания» вышел на первый план как метод художественного развития, обеспечивающий внутренний динамизм.

**D.Sh. Aliyeva**

## The analytical nature of the "stream of consciousness" in prose

## Summary

The article provides information about the characteristics of the "flow of consciousness" method in modernist literature, which emerged in the first half of the 20th century. We talk about the impact of this reception on the development of the novel genre. The introductory part of the article focuses on modernism, which forms the basis of the modernist novel, and concepts such as modernity and modernization. Modernism as a method in literature combines existentialism, cubism, surrealism, abstractionism, avant-garde, impressionism and other currents. Man no longer reflects the gifts of nature, but promotes his individuality by focusing on a variety of things. The main section examines the features of the "flow of consciousness" and the influence of the novel style on the novel. In the early twentieth century, the multi-directional plot line began to be replaced by internal psychological descriptions in the novel genre. In the work, the "flow of consciousness" has come to the fore as a method of artistic development that provides internal dynamism.

**Redaksiyaya daxil olub:** 30.08.2021